# SIRAVİ MÜSƏLMANLAR ÜÇÜN
# TƏMƏL ƏQİDƏ

Mucəddid İmam
Muhəmməd b. Abdulvəhhəb ət-Təmimi
رحمه الله تعالى

Tərcümə edən
**Bilal Şərifov**

# SIRAVİ MÜSƏLMANLAR ÜÇÜN

# TƏMƏL ƏQİDƏ

# تلقين أصول العقيدة للعامة


Mucəddid İmam
Muhəmməd b. Abdulvəhhəb ət-Təmimi
رحمه الله تعالى

Tərcümə edən
**Bilal Şərifov**

Redaktə
**Sahib Əsədov**

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

Mərhəmətli və Rəhmli Allahın adı ilə!

— Sənə “Rəbbin kimdir?” deyildikdə, “Rəbbim Allahdır” - de.

— Sənə “Rəbbin mənası nədir?” deyildikdə, “İbadət edilən, yönəlinən, tərbiyə edəndir” - de.

— Sənə “Onu nə ilə bildin?” deyildikdə, “Onu ayətləri ilə və yaratdıqları ilə bildim” - de.

— Sənə “Onun yaratdıqlarından gördüyün ən böyük şey nədir?” deyildikdə, “Göylər və yerdir” - de.

— Sənə “Onun ayətlərindən gördüyün ən böyük şey nədir?” deyildikdə, “Gecə və gündüzdür” - de.

Buna dəlil isə uca Allahın bu ayəsidir:

إِنَّ رَبَّكُمُ ٱللَّهُ ٱلَّذِى خَلَقَ ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضَ فِى سِتَّةِ أَيَّامٍ ثُمَّ ٱسْتَوَىٰ عَلَى ٱلْعَرْشِ
يُغْشِى ٱلَّيْلَ ٱلنَّهَارَ يَطْلُبُهُۥ حَثِيثًا وَٱلشَّمْسَ وَٱلْقَمَرَ وَٱلنُّجُومَ مُسَخَّرَٰتٍۭ
بِأَمْرِهِۦٓ ۗ أَلَا لَهُ ٱلْخَلْقُ وَٱلْأَمْرُ ۗ تَبَارَكَ ٱللَّهُ رَبُّ ٱلْعَٰلَمِينَ ﴿٥٤﴾

*“Doğrudan da, Rəbbiniz göyləri və yeri altı gündə yaradan, sonra da Ərşin üzərində ucalan Allahdır. O, gündüzü sürətlə təqib edən gecə ilə örtüb bürüyür. Günəşi, ayı və ulduzları Öz əmrinə tabe edən də Odur. Əslində, yaratmaq da, əmr etmək də Ona məxsusdur. Aləmlərin Rəbbi Allah ən |*

*əzəmətli, xeyiri və bərəkəti bol olandır". (Araf, 54)*

— Sənə "Allah isminin mənası nədir?" deyildikdə, "Bütün məxluqları üzərində Rəbblik edən, bütün ibadətləri tək olaraq özünə yönləndirilməsini haqq edən və ən gözəl ad və sifətləri özündə cəm edəndir" - de.

— Sənə "Allah bizi nə üçün yaratdı?" deyildikdə, "Ona ibadət etmək üçün" - de.

— "Buna dəlil nədir?" deyildikdə, "Uca Allahın bu ayəsidir" - de:

وَمَا خَلَقْتُ ٱلْجِنَّ وَٱلْإِنسَ إِلَّا لِيَعْبُدُونِ ﴿٥٦﴾

*"Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım". (Əz-Zariyat, 56)*

— Sənə "Allahın sənə fərz etdiyi şeylərin ilki nədir?" deyildikdə, "Allahdan başqa ibadət olunanları inkar edib, Allaha iman etməkdir" de. Buna dəlil isə Uca Allahın bu sözüdür:

لَآ إِكْرَاهَ فِى ٱلدِّينِ ۖ قَد تَّبَيَّنَ ٱلرُّشْدُ مِنَ ٱلْغَىِّ ۚ فَمَن يَكْفُرْ بِٱلطَّٰغُوتِ وَيُؤْمِنۢ بِٱللَّهِ فَقَدِ
ٱسْتَمْسَكَ بِٱلْعُرْوَةِ ٱلْوُثْقَىٰ لَا ٱنفِصَامَ لَهَا ۗ وَٱللَّهُ سَمِيعٌ عَلِيمٌ ﴿٢٥٦﴾

*"Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan aydın fərqlənir. Hər kim tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah hər şeyi eşidəndir, hər şeyi biləndir". (Bəqərə, 256).*

—Sənə “Möhkəm dəstək nədir?” deyildikdə, “Lə iləhə illəllah’dır” de. “Lə iləhə” inkar (yəni Allahdan başqa ibadət olunanları inkar edirik), “İlləllah” isə isbat mənasındadır (yəni ibadətin bütün növlərinin ancaq Allaha olmasının isbatı).

— Sənə “Buna dəlil nədir?” deyildikdə, de ki, “Uca Allah belə buyurmuşdur”:

وَإِذْ قَالَ إِبْرَٰهِيمُ لِأَبِيهِ وَقَوْمِهِۦٓ إِنَّنِى بَرَآءٌ مِّمَّا تَعْبُدُونَ ﴿٢٦﴾ إِلَّا ٱلَّذِى فَطَرَنِى فَإِنَّهُۥ
سَيَهْدِينِ ﴿٢٧﴾

*“Bir zaman İbrahim öz atasına və qövmünə demişdi: “Mən sizin ibadət etdiklərinizdən uzağam. Yalnız məni yaradandan başqa! Şübhəsiz ki, O məni doğru yola yönəldəcək”. (Zuxruf, 26-27).*

— Sənə “Rübubiyyət tövhidi ilə Üluhiyyət tövhidi arasındakı fərq nədir?” deyildikdə, “Rübubiyyət tövhidi: yaratma, ruzi vermə, həyat vermə, öldürmə, yağış yağdırma, bütün işləri idarə etmə kimi Rəbbin fellərində Onu təkləşdirməkdir. Üluhiyyət tövhidi isə: dua etməkdə, qorxuda, ümid bəsləməkdə, təvəkkül etməkdə, kömək istəmədə, qurban kəsməkdə və s. kimi ibadətlərdə Onu təkləşdirməkdir(Yəni bütün bu əməlləri yalnız Allah üçün etməkdir).

— Sənə “Dinin nədir?” deyildikdə, de ki: “Onun əsli və təməl qaydası bu iki şeydir”:

1) Allaha ibadət etmək və insanları buna dəvət etmək,

2) Allaha şərik qoşmaqdan uzaq durmaq və insanları da bundan çə-

kindirmək.

İslam bu beş şey üzərində bina edilmişdir:

1) Şəhadət kəlməsi (Lə iləhə illəllah, Muhəmmədən rasulullah),

2) Namaz qılmaq,

3) Zəkat vermək,

4) Ramazan orucunu tutmaq,

5) Həccə getmək (maddi gücü çatanlara aiddir)

ŞƏHADƏTİN DƏLİLİ:

شَهِدَ ٱللَّهُ أَنَّهُۥ لَآ إِلَٰهَ إِلَّا هُوَ وَٱلْمَلَٰٓئِكَةُ وَأُو۟لُوا۟ ٱلْعِلْمِ قَآئِمًۢا بِٱلْقِسْطِ ۚ لَآ إِلَٰهَ إِلَّا هُوَ ٱلْعَزِيزُ ٱلْحَكِيمُ ﴿١٨﴾

*“Allah ədalətli olaraq şahidlik etmişdir ki, Özündən başqa ibadətə layiq olan məbud yoxdur. Mələklər və elm sahibləri də, buna şahidlik etmişlər. Ondan başqa ibadətə layiq olan məbud yoxdur, Qüdrətlidir, Hikmət sahibidir”. (Ali İmran, 18).*

MUHƏMMƏDİN ﷺ ALLAHIN ELÇİSİ VƏ SONUNCU PEYĞƏMBƏR OLMASININ DƏLİLİ:

مَّا كَانَ مُحَمَّدٌ أَبَآ أَحَدٍ مِّن رِّجَالِكُمْ وَلَٰكِن رَّسُولَ ٱللَّهِ وَخَاتَمَ ٱلنَّبِيِّـۧنَ ۗ وَكَانَ ٱللَّهُ بِكُلِّ شَىْءٍ عَلِيمًا ﴿٤٠﴾

*“Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyil. Lakin o, Al-*

*lahın rəsulu və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi bilir".*

*(Əhzab, 40).*

NAMAZIN VƏ ZƏKATIN DƏLİLİ:

وَمَآ أُمِرُوٓاْ إِلَّا لِيَعۡبُدُواْ ٱللَّهَ مُخۡلِصِينَ لَهُ ٱلدِّينَ حُنَفَآءَ وَيُقِيمُواْ ٱلصَّلَوٰةَ وَيُؤۡتُواْ ٱلزَّكَوٰةَۚ وَذَٰلِكَ دِينُ ٱلۡقَيِّمَةِ ٥

*"Halbuki onlara, dini məhz Allaha məxsus edərək, həniflər kimi ibadət etmək, namaz qılmaq və zəkat vermək əmr olunmuşdu. Doğru din də elə budur"! (Bəyyinə, 5).*

ORUCUN DƏLİLİ:

يَـٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ كُتِبَ عَلَيۡكُمُ ٱلصِّيَامُ كَمَا كُتِبَ عَلَى ٱلَّذِينَ مِن قَبۡلِكُمۡ لَعَلَّكُمۡ تَتَّقُونَ ١٨٣

*"Ey iman gətirənlər! Sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də oruc tutmaq vacib edildi ki, bəlkə Allahdan qorxasınız". (Bəqərə 183)*

HƏCCİN DƏLİLİ:

فِيهِ ءَايَـٰتُۢ بَيِّنَـٰتٞ مَّقَامُ إِبۡرَٰهِيمَۖ وَمَن دَخَلَهُۥ كَانَ ءَامِنٗاۗ وَلِلَّهِ عَلَى ٱلنَّاسِ حِجُّ ٱلۡبَيۡتِ مَنِ ٱسۡتَطَاعَ إِلَيۡهِ سَبِيلٗاۚ وَمَن كَفَرَ فَإِنَّ ٱللَّهَ غَنِيٌّ عَنِ ٱلۡعَـٰلَمِينَ ٩٧

*"Orada aydın nişanələr – İbrahimın məqamı vardır. Ora daxil olan kəs*

*əmin-amanlıqda olar. Yoluna gücü çatan hər kəsin müqəddəs Evi ziyarət etməsi Allahın insanlar üzərindəki haqqıdır. Kim bunu inkar edərsə, bilsin ki, Allahın aləmlərə ehtiyacı yoxdur". (Ali İmran 97)*

İmanın əsasları isə altıdır:

1) Allaha iman

2) Mələklərə iman

3) Kitablara iman

4) Peyğəmbərlərə iman

5) Axirət gününə iman

6) Xeyri və şərri ilə qədərə iman etmək.

Dinin ehsan mərtəbəsi isə : Allaha Onu görürmüş kimi ibadət etməyindir. Sən Onu görməsən də, O səni görür.

— Sənə "Peyğəmbərin kimdir?" deyildikdə, de ki:

*"Haşim oğlu Əbdülmüttəlib oğlu Abdullah oğlu Muhəmməddir. Haşim Qureyşdən, Qureyş isə ərəblərdəndir. Ərəblər isə İbrahimin oğlu İsmailin zürriyyətindəndir. Allahın salavatı və salamı onların üzərinə olsun. O, Məkkəli olub, sonradan Mədinəyə hicrət etmişdir. Altmış üç il yaşamış, qırx ili peyğəmbərlikdən öncə, iyirmi üç ili isə nəbi və elçi olaraq yaşamışdır. "İqra(Ələq)" surəsi ilə nəbi, "Muddəssir" surəsi ilə elçi olmuşdur".*

— "O öldümü, ya yox? deyildikdə de ki, "O öldü, dini isə qiyamətə

qədər ölməzdir”.

Buna dəlil:

إِنَّكَ مَيِّتٌ وَإِنَّهُم مَّيِّتُونَ ﴿٣٠﴾ ثُمَّ إِنَّكُمْ يَوْمَ ٱلْقِيَٰمَةِ عِندَ رَبِّكُمْ تَخْتَصِمُونَ ﴿٣١﴾

*“Sözsüz ki, sən də öləcəksən, onlar da öləcəklər! Sonra siz Qiyamət günü Rəbbinizin hüzurunda mübahisə edəcəksiniz”. (Zumər, 30,31)*

— Səndən soruşsalar ki ; “İnsanlar öldükdən sonra diriləcəklərmi?” de ki , “Bəli, buna dəlil isə uca Allahın bu sözüdür :

۞ مِنْهَا خَلَقْنَٰكُمْ وَفِيهَا نُعِيدُكُمْ وَمِنْهَا نُخْرِجُكُمْ تَارَةً أُخْرَىٰ ﴿٥٥﴾

*“Biz sizi torpaqdan yaratdıq. Sizi ora qaytaracaq və bir daha oradan çıxardacağıq”. (Taha, 55)*

Və bu ayə:

زَعَمَ ٱلَّذِينَ كَفَرُوٓا۟ أَن لَّن يُبْعَثُوا۟ ۚ قُلْ بَلَىٰ وَرَبِّى لَتُبْعَثُنَّ ثُمَّ لَتُنَبَّؤُنَّ بِمَا عَمِلْتُمْ ۚ وَذَٰلِكَ عَلَى ٱللَّهِ يَسِيرٌ ﴿٧﴾

*“Kafir olanlar heç vaxt dirildilməyəcəklərini iddia edirlər. De: “Xeyr, Rəbbimə and olsun ki, siz mütləq dirildiləcəksiniz. Sonra isə etdiyiniz əməllər sizə xəbər veriləcək. Bu, Allah üçün çox asandır!” (Təğabun 7)*

*Sonda aləmlərin Rəbbi olan Allaha sonsuz həmd sənalar olsun, Onun elçisi gözümüzün nuru olan Muhəmmədə ﷺ Allahın salavatı və salamı olsun.*

# تلقين أصول العقيدة للعامة

للإمام المجدد
محمد بن عبد الوهاب رحمه الله